

*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*

*XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR*

# LERİK

№ 12-13 (5551) ✹ 14 avqust 2015-ci il ✹ Qəzet 1937-ci ildən çıxır ✹ Rayonun ictimai-siyasi qəzeti ✹ Qiyməti 40 qəpik


## 2015-ci ilin birinci yarısında Lerik rayonunda görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunmuş Şuranın geniş iclası keçirildi

**Lerik Rayon İcra Hakimiyyətinin başçısı yanında "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasından irəli gələn vəzifələr və 2015-ci ilin birinci yarısında Lerik rayonunda görülmüş işlər, qarşıda duran vəzifələr"lə bağlı rayon icra hakimiyyəti başçısı yanında Şuranın geniş iclası keçirildi.**



Şura iclasında rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov, aparatın məsul işçiləri, hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, ağsaqqallar, gənclər və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Şura iclasını giriş nitqi ilə açan rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab Prezidentin proqram xarakterli giriş və yekun nitqində qeyd olunan məsələlər barədə ətraflı məlumat verdi, dünyada baş verən iqtisadi böhran fonunda Azərbaycan iqtisadiyyatının dinamik inkişafının təmin edildiyini, ölkəmizin ilin birinci yarısını uğurlu göstəricilərlə başa vurulduğunu qeyd etdi.

Bildirdi ki, regionlarının sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamları ilə qəbul edilmiş Dövlət Proqramları ölkəmizin iqtisadiyyatının dinamik inkişafını təmin etmiş, iqtisadiyyatın neft sektorundan asılılığını azaltmış, bölgələrin inkişafını daha da sürətləndirmişdir. Dövlət Proqramlarının uğurlu icrasının nəticəsidir ki, 2015-ci ilin birinci yarısında da əhalinin pul gəlirləri artmış, infilyasiyanın və yoxsulluğun səviyyəsi aşağı düşmüşdür.

Məhz bu uğurlu siyasi kursun nəticəsidir ki, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və ölkəmizin beynəlxalq nüfuzu getdikcə artır. İyun ayında dünyanın 50 ölkəsindən 6 mindən çox idmançının iştirakı ilə ilk Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi, açılış və bağlanış mərasimlərinin möhtəşəm təşkili, Avropa Oyunlarının cənab Prezident tərəfindən alovlandırılan məşəlinin qədim Azərbaycanın bütün bölgələrində qarşılanması ilə Azərbaycan xalqının tarixi keçmişi, ənənələri, əsl tolerantlığı bir daha dünyaya nümayiş etdirildi.



Rayon icra hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafının təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikov birinci yarımilin yekunları ilə bağlı geniş məruzə etdi. Rayonda aparılan tikinti-quruculuq, abadlıq işləri, yeni açılmış iş yerləri barədə məlumat verdi, kənd təsərrüfatı sahəsində əldə olunan uğurları diqqətə çatdırdı, qarşıda duran vəzifələri qeyd etdi.



İclasda rayon gənclər və idman idarəsinin rəisi Rövşən Rüstəmov, əhalinin sosial müdafiəsi mərkəzinin direktoru Malik Mirzəyev, maliyyə idarəsinin rəisi Elman Abbasov, elektrik şəbəkəsinin müdiri Şəfayət Hacıyev çıxış edərək rəhbərlik etdikləri sahələr üzrə görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verdilər.

Şura iclasında qeyd olunan təkliflər və qarşıda duran vəzifələrlə bağlı müvafiq qərar qəbul olundu.

Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov ölkə Prezidenti cənab İlham Əliyevin rayonumuza yüksək qayğı və diqqət göstərdiyini, rayonun sosial-iqtisadi inkişafını təmin etmək, əhalinin məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə bir neçə dəfə sərəncam imzaladığını qeyd etdi. Bu ildə dövlət qulluqçularının peşə bayramı günü ərəfəsində imzaladığı sərəncamla uzun illər dövlət qulluğunda səmərəli fəaliyyətinə, rayonun sosial-iqtisadi inkişafında göstərdiyi xidmətlərinə görə rayon icra hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyevin "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edildiyini diqqətə çatdırdı, bunu rayonun bütün ziyalılarına verilən qiymət olduğunu qeyd etdi.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov "Dövlət qulluğunda fərqlənməyə görə" medalını Cəlil Baxşıyevə təqdim etdi. Tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edildi.

## Amburdərə kəndinə qaz verildi

***Amburdərə kəndinə mavi qazın verilməsi ilə əlaqədar açılış mərasimi keçirildi. Mərasimdə rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti "Azəriqaz" İstehsalat Birliyi mətbuat xidmətinin rəisi İbrahim Kərbalıyev, "Azəriqaz" İstehsalat Birliyinin Lənkəran regional qaz istismarı idarəsinin rəisi Qismət Əsgərov, rayon ziyalıları və kənd ictimaiyyətinin nümayəndələri iştirak edirdi.***




Tədbiri kənd sakini Cavanşir Heydərov giriş sözü ilə açaraq qonaqları salamladı. Bildirdi ki, son illər ölkə Prezidenti cənab İlham Əliyevin qayğı və diqqəti ilə respublikanın hər yerində olduğu kimi Lerik rayonunda və onun ən ucqar kəndlərində belə tikinti-abadlıq işləri geniş vüsət almışdır. Qısa zaman ərzində çətin relyefə malik olan dağ kəndlərinə qaz xəttinin çəkilməsi böyük hünər və möhtəşəm hadisədir. Bütün bunlar cənab Prezidentin tapşırığına əsasən həyata keçirilir. Mən ərazimizin ağsaqqallarının, ziyalılarının, xüsusi ilə anaların adından cənab Prezidentə dərin minnətdarlığımızı və razılığımızı bildiririk ki, kəndlərdə artıq bizim sosial-məişət problemlərimiz həll edilir. Yollarımız asfaltlaşdırılır. Əvvəllər saatlarla getdiyimiz yolu indi 20-25 dəqiqəyə gedirik. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla icra edilməsi nəticəsində ölkəmizin bütün bölgələrində olduğu kimi Lerik rayonunda da geniş abadlıq və quruculuq işləri uğurla icra olunur, ayrı-ayrı yaşayış məntəqələrində təkcə qaz xətti deyil, içməli su və yollar çəkilir, digər sosial problemlər həll edilir, hər il yeni inşa edilmiş təhsil və səhiyyə müəssisələri istifadəyə verilir. Daha sonra kənd sakinlərindən müəllim Ağaseyid Məcidov və ağsaqqal Mircavad Kazımov çıxış edərək möhtərəm Prezident cənab İlham Əliyevə göstərdiyi diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildirdilər.



Azərbaycan Respublikası Dövlət Neft Şirkəti "Azəriqaz" İstehsalat Birliyi mətbuat xidmətinin rəisi İbrahim Kərbalıyev çıxış edərək kənd sakinlərini təbrik etdi, yaxın vaxtlarda digər bir neçə kəndin də qazlaşdırılması işlərinə başlanacağını bildirdi. Yeni istifadəyə verilmiş mavi qazdan səmərəli və ehtiyatla istifadə olunması ilə bağlı kənd sakinlərinə tövsiyələrini çatdırdı.

Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov kənd sakinlərini əlamətdar hadisə-təbii qazın verilməsi münasibəti ilə təbrik etdi, ən xoş arzularını çatdırdı. Dövlət Proqramına əsasən son illər Azərbaycanın hər bir bölgəsində olduğu kimi, rayonumuzda da geniş quruculuq-abadıq işlərinin həyata keçirildiyini diqqətə çatdırdı. Qeyd etdi ki, cənab Prezidentin qayğı və diqqəti ilə Lerik-Qosmalian-Kəlvəz yolu yenidən tikilmiş, Noda-Şingədulan-Xanagah yolunun tikintisinə başlanılmış və artıq 18 kilometr hissəsi asfaltlaşdırılmışdır. Lerik şəhərinə içməli su xətti çəkilir, kanalizasiya şəbəkəsi qurulur. Yeni məktəblər, səhiyyə ocaqları tikilib istifadəyə verilir. Kəndlərimizin qazlaşdırılması istiqamətində xüsusi iş aparılır. Cənab Prezidentin tapşırığına əsasən əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin etmək məqsədilə Modul tipli elektrik stansiyası inşa olunur, 35 kilovoltluq xətlər və daxili xətlər təmir edilir, yeni transformatorlar qurulur, məftil xətlər sip kabellərlə əvəz olunur. Hazırda 3 kəndimizdə qazlaşdırılma işləri davam etdirilir. Cənab Prezidentin tapşırığı, qayğı və diqqəti ilə rayonumuzda bütün bu işlərin həyata keçirilməsində bizə dəstək olan hər kəsə öz dərin minnətdarlığımızı bildiririk.

## Fransa Respublikasının Azərbaycandakı səfiri Paskal Mönye Lerik rayonunda səfərdə olmuşdur

**2015-ci il iyulun 23-də Fransa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Paskal Mönye Lerik rayonunda səfərdə olmuşdur.**



Səfər çərçivəsində Fransa Respublikasının Azərbaycan Respublikasındakı səfiri Paskal Mönye və Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyev arasında görüş oldu. Rayon icra hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyev səfiri salamladı, rayonun qədim tarixi, sosial-iqtisadi inkişafı haqqında ətraflı məlumat verdi. Səfir Paskal Mönye Azərbaycanda gedən sosial-iqtisadi inkişafın onda xoş təəssürat yaratdığını qeyd etdi, paytaxtla yanaşı region şəhərlərində də inkişafın, müasirləşmənin getdiyini, bu gün Lerikdə olmasından məmnun qaldığını bildirdi.

Görüş zamanı səfir Paskal Mönyeyə rayon sakinləri tərəfindən hazırlanmış əl işləri nümunələrindən ibarət hədiyyələr və Lerik haqqında yazılmış kitablar təqdim edildi.

Səfər çərçivəsində cənab Paskal Mönye "Uzunömürlülər" muzeyində eksponatlarla tanış olmuş, qonağa rayonun uzunömürlü sakinləri və zəngin tarixi keçmişi haqqında ətraflı məlumat verilmişdir. Eyni zamanda səfir burada rayon sakini Musa Bədəlovla görüşüb söhbət etmişdir.

Daha sonra səfir Paskal Mönye Fransız və Azərbaycan alimlərindən ibarət arxeoloji ekspedisiya tərəfindən Monidigah kəndində aparılan arxeoloji qazıntılarla tanış olmuşdur.

## Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

İlk növbədə Sizi salamlayıram. Sizə dünyada ən şirin nemət olan uzun ömür, cansağlığı, prezidentlik fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Mətbuatda oxudum ki, "Rəy" Monitorinq Mərkəzinin ölkə üzrə keçirdiyi rəy sorğusunun nəticələrinə görə Sizə etimad 90 faizə yaxındır. Əgər prezident seçkiləri keçirilsəydi, respondentlərin tam əksəriyyəti öz səslərini məhz Sizə verərdilər. Bir vətəndaş, alim, ağsaqqal kimi buna çox sevindim.

Sevincimin digər əsas səbəblərindən biri də Avropa Oyunlarının Azərbaycanda keçirilməsi, bu möhtəşəm, tarixi, yaddaqalan yarışlarda Azərbaycan idmançılarının böyük qələbə qazanmasıdır. Azərbaycan adını dünya idman tarixinə qızıl hərflərlə yazdı. İlk Avropa Oyunları ölkəmizin qüdrətini bir daha nümayiş etdirdi. Azərbaycanı Sizin rəhbərliyinizlə tarixdə birinci qitə yarışmasının mükəmməl təşkilatçısı kimi dünyada tanıtdı. Birinci Avropa Oyunları kimi möhtəşəm hadisəni xalqımıza qürurla yaşadan Sizsiniz, cənab Prezident. Siz bu yarışların əsl qalibi və şəriksiz müəllifisiniz. Sizə daha uca zirvələr arzu edirəm. Bayraqlar ucalan yerdə başlar da ucalır.

**Cənab Prezident!**

Sevincimə digər səbəb isə Lerikin gözümün qarşısında tanınmaz dərəcədə dəyişməsi, abad və yaraşıqlı bir şəhərə çevrilməsidir. Bu, Sizin bir dövlət başçısı olaraq Azərbaycanın regionlarına, eləcə də Lerik rayonuna göstərdiyiniz diqqət və qayğının nəticəsidir. Rayonumuzda xəstəxana və məktəblərin əsaslı təmirində, Lerik-Lənkəran, Lerik-Qosmalian-Kəlvəz, Noda-Şingədulan-Xanagah avtomobil yolunun, modul tipli elektrik stansiyasının, digər sosial yönümlü obyektlərin tikintisində Sizin əvəzolunmaz xidmətiniz vardır. Bu gün də Lerikdə tikinti-abadlıq işləri uğurla davam etməkdədir.

Digər sevincimə əsas səbəb isə Sizin hər il dövlət qulluqçularına göstərdiyiniz diqqət və qayğıdır. Bu bayram ərəfəsində Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyevin Sizin Sərəncamınızla "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif etməyinizdir.

Cənab Prezident!

Sizin imzaladığınız fərman və sərəncamların, göstərişlərin Lerik rayonunda həyata keçirilməsi üçün yorulmadan çalışan, bilik və bacarığını əsirgəmyən kadrlardan biri də Cəlil Baxşıyevdir. 16 ildir ki, Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatında işləyir. Cəlil Baxşıyev Dövlət qulluqçusu adını şərəflə doğruldur. O, həmişə rayon ictimaiyyəti ilə sıx əlaqə saxlayır, onların rəy və təkliflərini öyrənib həyata keçirir. Biz ağsaqqallar Cəlil Baxşıyevdən çox razıyıq. Lerikdə Dövlət proqramlarının uğurla həyata keçirilməsində onun böyük əməyi vardır.

Möhtərəm Prezİdent!

Sizə bir daha möhkəm cansağlığı və uzun ömür arzulayıram. Bilirəm ki, ulu öndər Heydər Əliyevin həyat keçirə bilmədiyi işləri Siz həyata keçirəcək, müstəqil Azərbaycan Sizin məqsədyönlü daxili və xarici siyasətinizlə daha uca zirvələrə ucalacaqdır.

Hörmətlə,

**Hacı Musa Bədəlov, Prezident təqaüdçüsü, biologiya üzrə fəlsəfə doktoru**



# Vətəndaş müraciət edibsə...

***«Yerli icra hakimiyyətləri haqqında Əsasnamə»nin «Yerli icra hakimiyyətləri başçısının vəzifələri» bəndinin 3.1.16-cı yarımbəndində qeyd olunmuşdur: rayon icra hakimiyyəti başçısının aparatında, inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, yerli icra hakimiyyəti başçısının yanında olan qurumlarda və tabeliyində olan hüquqi şəxslərdə vətəndaşların qəbulunu, onların ərizə, təklif və şikayətlərinə «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Azərbaycan Respublikası Qanununu ilə müəyyən edilmiş qaydada və müddətlərdə baxılmasını və onlara cavab verilməsini təmin edir.***

Yerli icra hakimiyyəti orqanlarında vətəndaş müraciətlərinə baxılması işi qeyd olunan normativ-hüquqi aktlarla tənzimlənir: "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının 1997-ci il 10 iyul tarixli 314-IQ nömrəli Qanununu, Azərbaycan Respublikasının Prezidentinin 1998-ci il 29 dekabr tarixli 52 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması Qaydaları", Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 347 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçılarının aparatlarında sənədlərlə iş barədə Təlimat", Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında idarə, təşkilat və müəssisələrdə kargüzarlığın aparılmasına dair Təlimat" və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə".

Göstərilən Qanun, Fərman, Sərəncam, Əsasnamə və digər normativ hüquqi aktların tələblərinə uyğun olaraq 2015-ci ilin ilk yarısında rayon icra hakimiyyəti başçısı aparatında müəyyən qədər iş görülmüşdür. Belə ki, ilin birinci 6 ayında rayon icra hakimiyyəti başçısı aparatına 470 yazılı müraciət daxil olmuşdur ki, bu da 2014-cü ilin eyni dövrü ilə müqayisədə 173 yazılı müraciət azdır. Hesabat dövrü ərzində aparata Azərbaycan Respublikası Prezidenti Administrasiyasından 151 (178) -27 az, Milli Məclisdən 13(16)-3 az, Nazirlər Kabinetindən 12 (23)-11 az, Mərkəzi qurumlardan 82 (132)-50 az, rayon ərazisindən 213 (294) - 81 az yazılı müraciət daxil olmuşdur. Rayon icra hakimiyyətinin inzibati idarə binasında başçı tərəfindən 519 (551) - 69 nəfər az vətəndaş qəbul olunmuş, yerlərdə səyyar görüş-qəbullar zamanı başçıya 213 (290) -77 nəfər az vətəndaş bilavasitə müraciət etmişlər.

Adları qeyd olunan aşağıdakı kəndlərdən daha çox yazılı müraciət daxil olmuşdur: Lerik şəhəri 72, Züvüc kəndi 19, Siyov kəndi 16, Qələbin kəndi 16, Çayrud kəndi 14, Vistən kəndi 12, Veri-Əliabadı kəndi 11, Günəşli kəndi 9 və s.

Yazılı müraciətlərin daha çox daxil olduğu ərazilər bunlardır: Lerik - 68, Veri - 49, Züvüc - 27, Daster - 23, Nüvədi - 23, Əliabad - 22, Çayrud - 20 və s. Daha az müraciət daxil olan ərazilər: Mistan - 2, Tülüconu - 3, Nuravud - 3, Pirasora - 4, Bürsülüm - 6, Livədirqə - 6, Molalan - 7 və s. Qeyd olunduğu kimi, 2015-ci ilin birinci yarısında yazılı müraciətləri sayı 173 ədəd azaldığı halda, bəzi ərazilərdə müraciətlərin sayı çoxalmışdır: Əliabad - 22 (12) - 10, Molalan 7(3) - 4, Tikəband 9 (4) - 5 və s. Ümumilikdə 20 ərazidən daxil olan müraciətlərin sayı azalmış, 7 ərazidən çoxalmış, 2 ərazidən isə müraciətlərin sayı bərabər olmuşdur.

Rayon üzrə 6 ay ərzində 78 nəfər tərəfindən 205 təkrar müraciət yazılmışdır. Daha çox müraciət edən vətəndaşlar aşağıdakılardır. Nüvədi ərazisindən kollektiv müraciət - 12, Veri-Əliabadı kənd sakini Heybət Məhərrəmov - 7, Züvüc kənd sakini Bilal Ağayev - 5, Babagil kənd sakini Soğra Cəfərova - 4, Soru kənd sakini Rasim Həsənov - 4, Çayrud ərazisindən kollektiv müraciət - 4, Daster ərazisində kollektiv müraciət - 4, Lerik şəhər sakini Miriş Şahiyev - 4 və s. 21 nəfərin hərəsi 3, 50 nəfərin isə hərəsi 2 təkrar müraciət yazmışdır. 23 inzibati ərazi dairəsində təkrar müraciət daxil olmuşdur. 4 inzibati ərazi dairəsindən daxil olan təkrar müraciətlərinin sayı 93-dür: Veri - 32, Lerik - 30, Züvüc - 17, Nüvədi - 14. Bu göstərici yarımil ərzində daxil olan təkrar müraciətlərin 45,3 faizini təşkil edir.

12 inzibati ərazi dairəsindən 2015-ci ilin ilk 6 ayında 40 kollektiv müraciət daxil olmuşdur: Nüvədi (13), Daster (5), Kələxan (4), Çayrud (4), Veri (4) ərazilərindən daxil olan kollektiv müraciətlərin sayı 30-dur ki, bu da bütün kollektiv müraciətlərin 75 faizini təşkil edir.



Qeyd olunduğu kimi, 2015-ci ilin ilk 6 ayında rayon icra hakimiyyəti başçısı aparatına vətəndaşlar tərəfindən 470 yazılı müraciət daxil olmuşdur. Vətəndaşları narahat edən ən çox aşağıdakı məsələlər olmuşdur: işlə təmin olunması - 75, maddi yardım göstərilməsi - 57, qəbulda olmaq istəməsi - 32, torpaq məsələləri - 28, evinə dəymiş ziyanın bərpasına köməklik göstərilməsi - 26, ərazi icra nümayəndələrinin hərəkətləri barədə - 23, ünvanlı dövlət sosial yardımı ilə təmin olunması - 20, yeni ev tikməyə köməklik göstərilməsi - 15 və s.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasından hesabat dövrü ərzində rayon icra hakimiyyəti başçısı aparatına 151 yazılı müraciət daxil olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 27 ədəd azdır. Yalnız Nuravud ərazisi üzrə Azərbaycan Respublikası Prezidenti Administrasiyasından aparata yazılı müraciət daxil olmamışdır. 13 inzibati ərazi dairəsi üzrə müraciətlərin sayı azalmış, 12 ərazi üzrə çoxalmış, 3 ərazi üzrə müraciətlərin sayı bərabər olmuşdur.

2015-ci ilin ilk 6 ayında rayon icra hakimiyyəti başçısının qəbulunda 519 (551) - 69 nəfər az vətəndaş olmuşdur. Həmçinin rayon icra hakimiyyəti başçısının müavinləri, aparatın şöbə müdirləri, işçiləri də vətəndaşların qəbulu ilə məşğul olurlar. Vətəndaşlar həftənin 6 günü ərzində rayon icra hakimiyyəti başçısı aparatında qəbul olunurlar. Rayon icra hakimiyyəti başçısının qəbulunda aşağıdakı ərazilərdən daha çox vətəndaş olmuşdur: Lerik - 159, Blaband - 53, Vizəzəmin - 36, Cəngəmiran - 31, Çayrud - 20, Əliabad - 17, Nüvədi -16 və s. Mistan ərazisində yaşayan vətəndaşlar başçının qəbulunda olmamışlar.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən yerlərdə vətəndaşlarla hər həftədə bir dəfə olmaqla səyyar görüş-qəbullar keçirilir. 2015-ci ilin ilk yarısında 21 yerdə vətəndaşlarla səyyar görüş-qəbullar keçirilmişdir. Bu görüş-qəbullar zamanı 65 məsələ ilə bağlı 213 vətəndaş bilavasitə rayon icra hakimiyyəti başçısına müraciət etmişlər. Səyyar görüş-qəbullarda 1727 vətəndaş iştirak etmişdir.

Vətəndaşların haqlı müraciətlərinə baxılması sahəsində daim təkmilləşdirmə işləri aparılır, səmərəli yollar axtarılır, onları narahat edən, düşündürən problemlərin icrası ilə bağlı təsirli tədbirlər görülür. Cənab Prezidentimiz İlham Əliyev 29 aprel 2015-ci il tarixdə "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" 503 nömrəli Fərman imzalamışdır. Həmin Fərmanla "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemindən istifadə Qaydaları" təsdiq edilmişdir. Bu "Qaydalar" Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyanın 10.2.4-cü yarımbəndinə uyğun olaraq dövlət orqanlarında elektron sənəd dövriyyəsinin və vətəndaşların müraciətləri üzrə kargüzarlığın elektron formada aparılmasının təmin olunmasına uyğun olaraq hazırlanmışdır.

Rayon icra hakimiyyəti başçısı aparatında vahid elektron informasiya sisteminin aparılması üçün aparatın inzibati idarə binasında otaq ayrılmış, bütün lazım olan kompüter avadanlıqları quraşdırılmışdır. Vətəndaş müraciətlərinin hamısı bu sistemə işlənilir, vətəndaş müraciətlərinin sürətləri və icra barədə arayışlar başçının dərkənarından sonra sistemə qoşulur. Bu sahədə aktiv iş davam etdirilir.

"Yerli icra hakimiyyətləri haqqında Əsasname"nin beşinci bölməsində ərazi icra nümayəndələrinin vəzifə və səlahiyyətləri göstərilmişdir. Beşinci bölmənin 5.1.8-ci bəndində göstərilir: "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş qaydada vətəndaşların qəbulunu həyata keçirmək, onların ərizə, şikayət və təkliflərinə baxmaq, lazımı tədbirlər görmək və nəticəsi barədə vətəndaşa məlumat vermək".

Hər bir ərazi icra nümayəndəsi, hər bir vəzifəli şəxs qeyd olunanlardan nəticə çıxarmalı, mövcud qanunvericiliyin tələblərinə əməl etməli, tapşırılan işin icrası ilə ciddi məşğul olmalı, vətəndaşların haqlı tələblərini imkan daxilində icra etməli, onların hüquq və azadlıqlarının təmin olunmasına diqqətlə yanaşmalıdır.

**Təhməz Əliyev,**
**Lerik RİH sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**

# Dünya necə yaddaşlara köçür?

## Yaxud, nəsillərin bir-birinə vəsiyyəti

**Bizləri biliklər ümmanına qovuşduran, elm, mərifət, təfəkkür, idrak sahibi edən sözsüz ki, kitabdır. Kitab barədə düşünərkən dahilərin qiymətli deyimlərini xatırlayıram. A.Gertsen deyir ki, kitab nəsillərin bir-birinə vəsiyyətidir. C.Şviftə görə, kitab təfəkkürün övladıdır. D.Didroya görə isə hər kim kitab oxumursa, o, düzgün fikirləşə bilməz. V.Kubarev yazır: «Kitabsız qalmaq çörəksiz qalmaqdan çətindir». Böyük yazıçı M.Qorki kitabı belə mənalandırır: «Kitab insanda görmədiyim cəhətləri mənə sübut etmək qüdrətinə malikdir».**

Bəli, yaxşı kitablar oxumaq ötən əsrlərin ağıllı adamları ilə söhbət etmək, onlarla mühaliməyə girmək deməkdir. Kitabın adamların əmək və siyasi tərbiyəsində, estetik zövqünün formalaşmasında, mənəvi-əxlaqi keyfiyyətlərinin yüksəldilməsində müstəsna rolunu heç kəs inkar eləyə bilməz. Kitab bir tərəfdən insanı darıxmağa qoymursa, digər tərəfdən isə kəhkəşana yol açır, sirli-soraqlı dünyanın gəliş-gedişindən bizi agah edir...

Dünyanın vaxt qatarı üzü gələcəyə doğru şütüyür. İnsan vaxt qatarının sərnişini olduğu zaman çərçivəsində ömür deyilən tale payını əbədi-əzəli dünyamızın taleyi ilə qoşalaşdıran kitabdır, desəm yanılmaram. Xüsusən də kitab ağlı iti, sözü kəsərli, sərraf zəkası, sərraf əli ilə cilalanırsa lap qiyamətdir!..

Bu mənada Hümbətəli Talıbovun "Yaddaşlarda qalan dünya" adlı kitabı bir nəslin yaşadığı illəri əks etdirir, bu nəslin demək istədiyi və deyilməmiş sizləri, hiss və həyəcanları, fikirləri, düşüncələri, arzuları oxucunun diqqətinə çatdırır. Öncədən qeyd edək ki, bu kitab güclü bir yaddaşın məhsuludur. Müdriklər yaddaşı çoxlu arakəsmələri olan ağıl anbarı hesab etmişlər. Müxtəlif adamlardan, onların taleyindən söz açan bu kitabın ana xəttini Orand tayfaları arasında müdrikliyi, ağsaqqallığı, comərdliyi, halallığı ilə fərqlənən insanların taleyi təşkil edir. Kitabı oxuduqca fəsillər arasından bağlılıq, qələmə alınan mövzuların xronoloji ardıcıllığı, bir-birini tamamlaması qələm sahibinin səriştəsindən xəbər verir.

Müəllif yazır: "gbizi əhatə edən maddi aləm vahid bir tamdır, burada hadisələr və proseslər biri-birinə qırılmaz surətdə bağlıdır. Adi söhbət əsnasında yaranan sual: "Babamızın anası kim olub?" hadisələrin ən ümumi qanunauyğun əlaqə forması olan səbəbi doğurdu. Səbəb isə nəticəsiz olmur. Çünki bunlar bir-biri ilə əlaqədar anlayışlardır, onların arasında funksional asılılıq vardır. Səbəbin nəticəsi isə bu sətirlərin meydana gəlməsi oldu". ("Soy-kökünü bilməyən başqasını tanımır")

Hümbətəli müəllim "müəllim" məfhumunun daşıdığı mənəvi yetkinliyi, idraki kamilliyi öz şəxsiyyətində və qələmə aldığı kitabda cəmləşdirmişdir. Bizə uzaq-yaxın tarixi keçmişi müasirlik baxımından işıqlandıran kitabı ərsəyə gətirə bilmişdir. Bu da sübut edir ki, müəllif yaşadığı elin-obanın, xalqın tarixi keçmişini, ziddiyyətlərini dərindən bilir, buna görə də çox əhəmiyyətli, sanballı oçerklər - hekayələr toplusunu qələmə ala bilmişdir.

Kitabda "Keçmiş günləri yada salaq", "Şinəband, yoxsa Şirəvand" adı ilə təsvir olunan yazılarda əməyin romantikası duyulur, əmək adamlarının surəti oxucunun fikrini məşğul edir. Çünki hekayələrin hər birində cəlbedici məzmun, ideya dolğunluğu və məna yığcamlığı mövcuddur. Böyük rus yazıçısı Çexovun "Qısalıq istedadın bacısıdır" sözlərini çəkinmədən qələmə alınan hekayələrə şamil etmək olar.

Həyat çox genişdir, hadisələr, təsvir obyektləri saysız-hesabsızdır. Əsl ustalıq ictimai hadisələr burulğanında çaş-baş olmamaq, vacib məsələləri vacib olmayanlardan seçmək, diqqəti dövr üçün əhəmiyyətli olan məsələlərə yönəltməkdir. Bu baxımdan kitabda "Mərdliyin möcüzəsi, talançıların tövbəsi", "Təhlükə sovuşdu", "Bolşeviklərin gəlişi, əsgərlərin xilası" başlıqları altında verilmiş oçerklərdə Maşı babanın ağıllı tədbirləri ilə talançıların niyyətini puça çıxarmaqla yanaşı, onları düz yola qaytarması oxucuda insan-insana dost, yoldaş və qardaşdır anlayışlarının təlqin olunmasına və möhkəmlənməsinə xidmət edir. Sovet hakimiyyəti qurulanda eli-obanı lüzumsuz qırğınlardan xilas etməsi, iki sıravi əsgərini əsirlikdən xilas edib yurdlarına yola salması, sonradan onlardan birinin - Ə.Abdullayevin Lerikə dövlət təhlükəsizliyi rayon komitəsinin sədri kimi qayıdıb yaxşılığı itirməməsi oxucu təsəvvüründə işi, əməli, hərəkəti və tədbiri ilə canlı bir insan portretinin yaranmasına səbəb olur.

Ayrı-ayrı başlıqlarda qələmə alınan yazılarda şair, yazıçı, elm adamları, ictimai xadim və tarixi şəxsiyyətlərin söz, fikir və ideyalarından başlanğıcda epiqraf kimi, sonda isə nəticə kimi verilən sitatlarda ge-




niş ictimai-əxlaqi və qüvvətli bədii ümumiləşdirmə tam çılpaqlığı ilə özünü büruzə verir.

"Yaddaşlarda qalan dünya" kitabında təsvir olunan insanlar mücərrəd bir məfhum deyil, konkret bir tarixi varlıq, cəmiyyətin səciyyəvi xüsusiyyətlərini özündə toplayan fəal, mübariz qəhrəman kimi oxucuya təqdim olunur. Bu qəhrəman fərdiyyətçilikdən uzaq, yüksək vətəndaş şüuruna malik, vətənpərvər, həm də humanist bir adamdır. Humanizm ilə vətənpərvərlik bu insanda üzvi surətdə birləşir. Bu prinsip "İranda görüş və mənafelərin qurbanı" yazısında tam aydınlığı ilə oxucuya çatdırılır.

Dövlət işi ilə əlaqədar Almas kişinin İrana göndərilməsi, iş fəaliyyəti ilə yanaşı Cənubi Azərbaycanda lerikli vitse-konsul Mirzə Məmmədovla İrana mühacirət etmiş Şeyx Yunis, Zərrin xanım və digər həmyerliləri ilə görüşləri oxucunun qəlbində silinməz izlər buraxır. Müəllif göstərir ki, həyatın yolları hamar deyil, onun enişləri, yoxuşları, çətinlikləri var. İnsan bu yolda düz getməyi, öz hərəkəti ilə çətinlikləri dəf etməyi bacarmalıdır. Burada xatırlatmağı lazım bilirəm ki, bu fikirlər adi bir adamın oxuculara nəsihəti deyil, əksinə, yarım əsrə bərabər həyat yolu keçmiş, bu gün

**Dünyanın vaxt qatarı üzü gələcəyə doğru şütüyür. İnsan vaxt qatarının sərnişini olduğu zaman çərçivəsində ömür deyilən tale payını əbədi-əzəli dünyamızın taleyi ilə qoşalaşdıran kitabdır, desəm yanılmaram. Xüsusən də kitab ağlı iti, sözü kəsərli, sərraf zəkası, sərraf əli ilə cilalanırsa lap qiyamətdir!..**

yüzlərlə insan yanında alnıaçıq, üzüağ dayanan müəllim tərbiyəçinin insanlara odlu, hərarətli, səmimi ürək sözləridir.

"Hətəmin sevgisi və faciəsi", "Dost köməyi. Gərək belə görüşməydik" adlı hekayələrdə insan xarakterləri, faciələr, müəllifin bunlara fəal münasibəti elə tipik, səciyyəvi cizgilərlə təsvir edilmişdir ki, 5-10 səhifədə oxucunun qarşısında böyük bir aləm açılır. Əlbəttə, burada yığcamlıq yalnız həcmdə deyil, bəlkə daha çox məzmun, ideyanın cövhər halında verilməsindədir. Müəllif hekayələrin hər birində mütləq nəticə çıxarıb hökm vermir, onun məhəbbətlə sevdiyi qıza axıra qədər sədaqət və səmimiyyət göstərməyən Hətəmin səhvi üzündən yaranan faciə - iki qohum ailə arasına düşən qan düşmənçiliyi, Səyyafı ürəkdən sevən Gövhərin Səyyaf tərəfindən qaçırılması və təsadüf nəticəsində ölüm hadisəsinin baş verməsi, ata-anasının razılığı olmadan zorla qız qaçırmaq kimi iyrənc bir hadisəyə humanist müəllifin münasibəti, zəmanəmizdəki bu vəhşi qalıqlara qarşı etiraz səsi bütün gücü-qüvvəti ilə səslənir.

"Unutqanlıq bizə yaraşmır!" başlığı altında verilən hekayə yeniyetmə və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına xidmət edir. Böyük Vətən müharibəsi illərində Şinəband kəndində 18 ailədən 24 nəfərin cəbhəyə getməsi və onlardan 14 nəfərinin igidliklə döyüşlərdə həlak olması, üç nəfər Qarabağ şəhidinin adbaad göstərilməsi oxucunu düşünməyə məcbur edir. Hekayədə verilən Məhbubə əhvalatı sevənlər arasında həqiqi sevgi və məhəbbət, bu sevgi və məhəbbətə sədaqət və səmimiyyət oxucunu valeh edir. Məhbubə Rükəxanla evlənmiş, 3 aydan sonra Rükəxanı cəbhəyə yola salmışdır. O, Rükəxanım yolunu nə az, nə çox, düz otuz il gözləmiş, Rükəxandan soraq çıxmamışdır. "Gözlədilər bir il, beş il, düz otuz il!" - deyən müəllif əhvalatda həyatımızda baş verən mühüm hadisələr, bu hadisələrə iştirak etmiş insanlar canlı xarakterlərdə əks etdirilmiş, oxucunu həyacanlandıran dramatizm yerli-yerində verilmişdir.

Kitabın məziyyətlərini artıran xüsusiyyətlərdən biri də Lerikin ayrı-ayrı kəndlərindən, rayon mərkəzindən, Masallı və Lənkəran rayonlarından olan dövrünün hörmətli adamları kimi tanınan ağsaqqalların hadisələrin fonunda oxucuya təqdim edilməsi, sözün yaddaşa köçürülməsi, tarixləşməsi oxucu ürəyinə yolu qısaldır, oxucu ilə ünsiyyəti artırır.

Əminliklə deyə bilərik ki, Hümbətəli Talıbov "Yaddaşlarda qalan dünya" kitabında yazıya köçürülmüş oçerk və hekayələrin əsasında əxlaqi dərs, tərbiyəvi məqsəd durur. Bu məqsəd moizə və öyüd-nəsihət şəklində deyil, bədii vasitələrlə həyatın, hadisələrin və konfliktlərin dərin təsviri yolu ilə ifadə olunduğu üçün təsirli və təqdirəlayiqdir.

Kitabda təsvir olunan insanlar adi adamlardır, onlar adi işlər görür, sadə sözlər danışırlar. Ustalıq da elə bundadır ki, bu adilikdə insan mənəviyyatının dialektikasını, qeyri-adiliklərini duya bilirg

Beləliklə, deyə bilərik ki, oxuyub başa çatdırdığımız "Yaddaşlarda qalan dünya" kitabından xüsusi bir zövq alırsan. Oxucuya elə gəlir ki, çoxdan ayrıldığın doğma bir məkana düşür, hər şey ona yaxın, mehriban və tanış gəlir, eyni zamanda bütün oxuduqları onda yeni hisslər, yeni duyğular oyadır.

İnanırıq ki, "Yaddaşlarda qalan dünya" körpüsü illərin sınağından uğurla çıxacaqdır.

**İdris ŞÜKÜRLÜ**

# Lerikdə arxeoloji qazıntılar zamanı təkcə bir dolmendən 3000 illik tarixi olan 200-dən çox maddi-mədəniyyət nümunəsi tapılıb

**Bu barədə APA-nın cənub bürosuna AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji abidələrin külliyyatı şöbəsinin rəhbəri, Cənub-Şərqi Azərbaycanın arxeoloji abidələrinin tədqiqi ekspedisiyasının və Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyasının rəisi Abuzər Ələkbərov məlumat verib. Onun sözlərinə görə, XIX əsrin sonlarında həvəskar fransız arxeoloq Jak de Morqan və qardaşı Henri Morqan Lerikdə arxeoloji kəşfiyyat aparıblar.**

Həmin işlərin nəticəsi olaraq son Tunc və ilk Dəmir dövrünə aid daş qutu qəbirlər



və xeyli miqdarda arxeoloji materiallar üzə çıxarılıb. Tapılan materiallar, o cümlədən keramika məmulatları, bəzək əşyaları, silahlar və s. Fransaya aparılıb və hazırda Sen-Jermen Muzeyində mühafizə olunmaqdadır.

A. Ələkbərov bildirib ki, Azərbaycan və Fransa beynəlxalq arxeoloji ekspedisiyası 2011-ci ildə Fransa tərəfinin təşəbbüsü ilə yaradılıb. Məqsəd isə, bir növ, Morqan qardaşlarının apardığı işi davam etdirməkdən ibarətdir. Ötən 4 ildə Morqanın vaxtilə gəzdiyi Lerikin bütün kəndlərinin əraziləri tədqiq olunub. Bu ərazilərdə yeni daş qutular aşkarlanıb. Onların əksəriyyəti dağıdılıb.

Monidigah kəndi ərazisində üzə çıxarılan tapıntı xüsusi maraq kəsb edir: "Biz bir kompleks aşkar etmişik. Burada həm daş qutu-qəbirlər, həm də son Tunc - ilk Dəmir dövrünə aid 3000 illik tarixi olan dolmenlər, yəni yaşayış məskəni mövcuddur. Əvvəlki illərdəki qazıntılarda ya qəbirlər aşkarlanıb, ya da yaşayış yerlərinin əlamətlərinə rast gəlinib. Amma burada biz bunların üçünü bir yerdə aşkarlamışıq".

Burada təkcə bir dolmenin içərisindən 200-dən çox maddi mədəniyyət nümunəsi, o cümlədən saxsı qablar, bəzək əşyaları, silahlar, məişət avadanlıqları və s. üzə çıxarılıb. Tapıntıların hamısı xüsusi qablara yerləşdirilib.

Fransa tərəfdən ekspedisiyaya rəhbərlik edən professor Mişel Kazanova bildirib ki, Monidigahda tapılmış maddi-mədəniyyət nümunələri Fransaya aparılaraq laboratoriya şəraitində müayinə olunacaq: "Onların arasında maraq doğuran materiallar az deyil. Ümid edirik ki, həmin materiallar Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edəcək".

Aşkarlanan əşyalar ilin sonlarında Parisdə, Bakıda və Tiflisdə keçiriləcək beynəlxalq sərgilərdə nümayiş olunacaq.

**Məlumat üçün bildirək ki, Gürdəsər və Orand kəndlərinin ərazilərində qazıntı işləri aparılıb. Bu barədə oxuculara məlumat verəcəyik.**

# Fənn kurikulumları keçirilib



**"Mədəd Azərbaycan" təşkilatı tərəfindən ümumtəhsil pilləsində fənn kurikulumlarının ibtidai siniflərində tətbiqi üzrə təlimlər keçirilmişdir. V.İbrahimov adına Lerik şəhər tam orta internat məktəbində baş tutan təlimlərdə həmin təşkilatın təlimçisi Səymən Əliyeva və Sevda Əliyeva ibtidai sinif müəllimləri qarşısında təlimin yeni metodlarını izah etmişlər.**

Təlimlər Azərbaycan Respublikası Təhsil Nazirliyi və Dünya Bankının Təhsil Sektorunun İnkişafı üzrə ikinci layihə çərçivəsində həyata keçirilən ümumtəhsil üzrə kurikulumun icrasına dəstək və kurikulum islahatlarının davam etdirilməsi məqsədlərini həyata keçirir. Təlimin məqsədi təhsil işçilərinin peşəkarlıq səviyyəsini və bacarıqlarını təkmilləşdirmək, kurikulum barədə müəllimləri geniş maarifləndirmək, təhsilin səviyyəsini artırmaqdır.

Təlimlər başa çatdıqdan sonra iştirakçılara sertifikat verilmişdir.

### Yeni interaktiv təlim metodunun təqdimatı üzrə təlim keçirilir





Azərbaycan Respublikası Təhsil Nazirliyinin xətti ilə "Universal əlaqə və Təhsil Mərkəzinin rəhbərliyi ilə U.İbrahim adına Lerik şəhər orta internat məktəbində təlim keçirilmişdir.Təlimi Azərbaycan Respublikası Təhsil Nazirliyinin ingilis dili dərsliklərinin qiymətləndirilməsi üzrə ekspert, eləcə də Bakı Slavyan Universitetinin baş müəllimi və SOCAR şirkətinin başçılıq etdiyi Bakı-Fransa liseyinin "CNED distans" təhsil mərkəzinin ingilis dili müəllimi Tünzalə Cəfərova aparmışdır.

Təlimdə rayonun bir qrup qabaqcıl müəllimə sertifikat təqdim edilmişdir.

Şəkillər təlim zamanı çəkilmişdir.

# Böyükağa Mirsalayevə həsr edilib

***Böyükağa Mirəbülfət oğlu Mirsalayev 1893-cü ildə Lənkəran qəzasının Rəzqov kəndində anadan olmuşdur. Həyat şəraiti çətin olduğu üçün ailəsi Bakıya köçür, Böyükağa Sabunçuda oxuyur, inqilab ruhlu fəhlələrə qoşulur.***

Lerik rayon tarix-diyarşünaslıq muzeyində fədakar dövlət xadimi B.Mirsalayevin həyat yolunu əks etdirən fotostendin açılışı olmuşdur. Burada unudulmaz həmyerlimizin çoxsahəli fəaliyyətinin ayrı-ayrı məqamları, dostları, iş yoldaşları, ailə üzvləri, foto-şəkillər, sənədlər, qəzet və jurnal materialları vasitəsilə tamaşaçılara dolğun məlumat verir.



Böyükağa Mirsalayevi Bakıdan Lənkərana inqilabi işə kömək üçün göndərirlər. O, Lənkəranda və Lerikdə xalqa əks qüvvələrə qarşı mübarizəyə qoşulur, Lənkəran İnqilab Komitəsinin təşkilinə kömək edir.

1920-ci ildə partiya sıralarına daxil olur, çox keçmir ki, Moskvaya göndərilir, qəza komitə katibləri hazırlayan kursu bitirir. Qazax, Nuxa (indiki Şəki), Lənkəran qəza partiya komitələrinin sədri işləyir. Lənkəranda sənaye müəssisələrinin yaradılmasına, kənd təsərrüfatının inkişafına kömək edir. 1931-33-cü illərdə UİK(b)P Zaqafqaziya Ölkə Komitəsinin məsul təlimatçısı və bölmə müdiri işləyir. Bir neçə qurultayın nümayəndəsi olmaqla, Zaqafqaziya Ölkə Komitəsi üzvlüyünə namizəd seçilir.



B.Mirsalayev 1937-ci ildə günahsız olaraq həbs edilir. 1956-cı ildə Böyükağa Mirsalayevə, 1957-ci ildə isə onun həyat yoldaşı Qıztamam İsrafil qızına bəraət verilir.

Ən maraqlı şəkillərdən biri də Böyükağa Mirsalayevin iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovla 30-cu illərdə birlikdə çəkdirdiyi foto-şəkildir. Axı, onlar dost və bacanaq olmuşlar...

Muzeydə yaradılmış stendin qarşısında Böyükağa Mirsalayevin nəvələri, Lerik RİH-in səlahiyyət sahibləri, mədəniyyət işçiləri, jurnalistlər, Lerik şəhər sakinləri Böyükağa Mirsalayevi anmış, xatirəsini əziz tutmuşlar. Lerik rayon RİH-in, mədəniyyət şöbəsinin rəhbərliyinə minnətdarlıq ifadə olunmuşdur.

B.Mirsalayevin nəvəsi Ellada Mirsalayeva, onun həyat yoldaşı Mübariz Mirsalayev, Qənirə Əmrahov, Nəzirə Şükürova, Esmira Hadıyeva, Əməkdar artist Azad Şükürov, Lerik RİH başçısının müavini Arzu Vəlimənmədova, tədqiqatçı-jurnalist İdris Şükürlü, mədəniyyət şöbəsinin müdiri Aqil Sucayev, Əməkdar həkim Etibar Həşimov, jurnalist Hüsaməddin Abbasov çıxış etmiş, xatirə şəkilləri çəkilmişdir.

**Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatında**
**2015-ci il üçün vətəndaşların qəbulu günlərinin**

**C Ə D V Ə L İ**

| S/s | Soyadı, adı, atasının adı | Vəzifəsi | Qəbul günləri və saatı | Telefon |
|---|---|---|---|---|
| 1 | Bağırov Rövşən Elmidar oğlu | Lerik Rayon İcra Hakimiyyəti başçısı | II gün 10:00-da | 025 274-63-02<br>025 274-61-82 |
| 2 | Baxşıyev Cəlil Yüzbaşı oğlu | Başçının birinci müavini | I gün 11:00-da | 025 274-60-21 |
| 3 | Məlikov Habil Ağaxan oğlu | Başçının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | III gün 10:00-da | 025 274-60-22 |
| 4 | Vəlimənmədova Arzu Həmzə qızı | Başçının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | IV gün 10:00-da | 025 274-60-23 |
| 5 | Rzayev Baləli Yağnəli oğlu | Memarlıq və tikinti şöbəsinin müdiri | V gün 10:00-da | 025 274-46-68 |
| | Bayramov Əlipənah Hüseynağa oğlu | İnformasiya təminatı və təhlil sektorunun müdiri | V gün 10:00-da | 025 274-53-92 |
| 6 | Zahidov Mahmud Abbas oğlu | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | VI gün 11:00-da | 025 274-54-70 |
| | Quliyev Araz Qurban oğlu | Hüquq şöbəsinin müdiri | VI gün 11:00-da | 025 274-47-64 |

**Qeyd:** Azərbaycanın Milli Qəhrəmanları və onların ailə üzvləri, şəhid ailələri və Qarabağ əlilləri rayon icra hakimiyyəti başçısı aparatına müraciət edərkən növbədənkənar qəbul edilir.
Bayram günlərinə düşən qəbul günləri növbəti iş günlərinə keçirilir.

# 70 yaşın işığında...

**Həmin gün hava bürkü və isti idi. Noda kəndinin yuxarı məhəlləsində qələbəlik var idi. Lerik şəhərindən, Noda, Günəşli, Bilnə kəndlərindən gələn qonaqlar Məhəbbət Ağayevin həyatinə bitişik yerdə qoruyub mühafizə etdiyi meşəlikdə sərinlənir, çay içirdilər. Hələ qonaqlar hamısı gəlmədiyi üçün onlar keçmiş xatirələri yada salır, Məhəbbət Ağayevin bir insan, vətəndaş, el-oba dayağı olmasından danışırdılar. Deyirdilər ki, Məhəbbətin 70 yaşı tamam olsa da, o, maşallah cavan oğlana oxşayır, çevik və gümrahdır.**



Çox keçmədi ki, musiqi səsi gəldi. Qardaşı Tarverdi Ağayevin çaldığı saz havası sümüklərə işlədi. Bu da o demək idi ki, Məhəbbət Ağayevin işığına toplaşanlar, yubileyinə gələnlər, bəri gəlin.

Hamı həyətdə qurulmuş mağara yığışdı, musiqi səsləndi, ləzzətli təamlar bir-birini əvəz etdi. Şübhəsiz ki, ilk növbədə söz sahiblərinə, sonra da xanəndələrə, oyun havalarına, rəqsə meydan verildi.

Məhəbbəti təbrik etməyə gələnlərin ürəyi sözlə dolu idi. Milli Qəhrəman atası Əlizaid Müslümov, jurnalist Cabbar Zülfiyev, Ədalət Məmmədov, Sulduz İmaməliyev, Hətəmxan Qurbanov, Səydulla Ağayev, Fərhad Ağayev, Cəmil Ağayev, İdrət Ağayev, Araz Ağayev, Əlipaşa Məmmədov, Saiq Məmmədov, Balayar Ağayev, Məqsud Ağayev, İldırım Mirzəyev, Namik Əliyev və başqaları Məhəbbət Ağayev barədə xoş sözlər söylədilər, arzularını bildirdilər. Azərbaycanın Əməkdar jurnalisti İdris Şükürlü yubilyarı təbrik etdi, Lerikdə uzunmüddətli, səmərəli fəaliyyətinə, Vətən, yurd sevgisinə, fəal ziyalı mövqeyinə görə M.Ağayevə redaksiyanın fəxri diplomunu təqdim etdi.

Ağaş Mirzəyevin M.Ağayevə həsr etdiyi şeir səsləndirildi.

İstedadlı müğənni Şabala Əliyev məclis iştirakçılarını mahnı çələngi ilə feyziyab etdi. Rəqs edənlərə yenidən meydan verildi. Qohum-əqrəba, Məhəbbətin övladları, nəvələri, nəticəsi, dostları rəqs etdilər, ona sonsuz sevgilərini bildirdilər, yubilyara uzun ömür, cansağlığı arzuladılar.

**Zəfər Əliyev**

**Məhəbbət dostum,**
**ad günün mübarək!**

*Noda kəndinin ağsaqqal oğlu, tanınmış ziyalı Məhəbbət Ağayevə həsr edirəm*

Yüz illərin həsrəti var gözündə,
Vətənimin şöləsi var üzündə.
El-obanın qeyrəti var özündə,
Zəkan iti, şöhrətlisən, Məhəbbət!

İllər, aylar ömrümüzdə bir izdir,
Keçən günün xatirəsi əzizdir.
Qəlbindəki arzuların təmizdir,
Qəlbi təmiz, yolu açıq Məhəbbət!

Dost güvənər öz dostunun mərdinə,
Şərik olar sevincinə, dərdinə.
Bu cahandan zövq alasan, Məhəbbət!
Yubileyin mübarəkdir, Məhəbbət!

**Ağaş Mirzəzadə**

# Rayon ərazisində “Təmiz hava” aylığı tədbiri keçirilir

**Əziz sürücülər! Yay mövsümünün başlanılması ilə əlaqədar rayonun istirahət obyektlərinə gələn turistlərin sayı artmış və bununla bağlı küçə və yollarda nəqliyyat vasitələrin hərəkət intensivliyi xeyli yüksəlmişdir.**

Cari ilin 6 ayı ərzində yol hərəkəti qaydalarını pozan 339 sürücü barəsində inzibati protokol tərtib edilmişdir. Onlardan 8-i nəqliyyat vasitələrini sərxoş vəziyyətdə idarə edən, 41-i sürücülük hüququ olmadan idarə edən, 56-ı avtomobillərini texniki baxışdan keçirməyən, 106-ı təhlükəsizlik kəmərindən istifadə etməyən və digər qayda pozuntularına yol verən sürücülərdir.

Avqustun 1-də yük avtomobillərindən başqa, bütün avtomobillərin texniki baxışdan keçmə müddəti başa çatmışdır. Texniki baxış nəqliyyat vasitəsinin istehsal ilindən asılı olaraq həyata keçirilir. 2015-ci il istehsallı avtomobil texniki baxışdan keçdikdən sonra 4 il müddətinə bu prosesdən azad olur. Yəni 2015-ci il istehsalı olan avtomobil 2019-cu ilədək texniki baxışdan keçirilmir. Sonrakı illər ərzində isə bir il ara verilməklə texniki baxışdan keçirilir. Nəqliyyat vasitəsinin istehsal müddəti 10 il tamam olduqdan sonra hər il keçirilir. Məsələn 2011-ci il istehsalı olan avtomobillər texniki baxışdan 2016-cı ildə keçəcək. 2010-cu il istehsallı avtomobillər isə texniki baxışdan bu il keçməlidir.

Rayon ərazisində 147 ədəd hüquqi şəxslərə məxsus, 2661 ədəd isə fərdi nəqliyyat vasitələri qeydiyyatdadır. Hüquqi və fiziki şəxslərdən xahiş olunur ki, istifadələrində olan nəqliyyat vasitələrini müəyyən edilmiş müddətlərdə dövlət texniki baxışına təqdim etsinlər. Əks təqdirdə həmin şəxslər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 154.1-ci maddəsinə görə məsuliyyət daşıyırlar. Həmin maddəyə əsasən fiziki şəxslər



50 manat, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər isə 300 manat cərimə edilirlər. Əgər sürücü cərimələnibsə, o, 10 gün ərzində avtomobili texniki baxışdan keçirməlidir və bu müddət ərzində onu təkrar cərimələyə bilməzlər.

Cari ilin 6 ayı ərzində rayon ərazisində 4 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə ölən olmamış, 8 nəfər xəsarət almışdır. 2014-cü ilin 6 ayı ərzində isə 4 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə ölən olmamış, 7 nəfər xəsarət almışdır.

Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 2004-cü il tarixli 517 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı” çox mühüm sahəni əhatə edir. Proqramın icrası ilə əlaqədar avtonəqliyyat vasitələri tərəfində atılan zəhərli tullantılarla atmosfer havasının çirklənməsinə nəzarət artırılmışdır. “Təmiz hava” aylığında əməkdaşlarımız təsdiq olunmuş tədbirlər planına əsasən fəaliyyət göstərirlər. Reyd və yoxlamalar Lənkəran şəhər 1 saylı ərazi üzrə Ekologiya və Təbii Sərvətlər Şöbəsinin əməkdaşları ilə birgə keçirilir. Aylığın atmosfer havasının mühafizəsində rolu və əhəmiyyəti mövzusunda diskussiyalar keçirilir. Yollarda hərəkət edən avtomobillərin mühərriklərinin işlənmiş qazlarının tərkibindəki zəhərli maddələrinin miqdarına nəzarət gücləndirilərək ölçülür.

Sürücülər idarə etdikləri avtomobillərin mühərrikindən çıxan işlənmiş qazlarının çox olmasına görə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 154.2-3-cü maddəsinə görə məsuliyyət daşıyırlar və həmin maddəyə əsasən 50 manat məbləğində cərimə nəzərdə tutulmuşdur.

Əziz sürücülər! Sükan arxasında diqqətli olun və yol hərəkəti qaydalarına ciddi riayət edin! Avtomobillərinizi saz, istismara yararlı vəziyyətdə saxlayın. Ekologiyanın çirkləndirilməsi sağlamlığınıza, fauna və floraya ziyan vurur. Yol hərəkəti qaydalarının pozulması yol-nəqliyyat hadisələrinin baş verməsinə, bu isə insanların xəsarət almalarına və həlak olmalarına gətirib çıxarır.

**Xanhüseyn Səmədov,
Lerik RPŞ-nin DYPB-nin rəisi,
polis mayoru**




# Hörmətli vergi ödəyicisi!

Bildiririk ki,vergi orqanı ilə vergi ödəyiciləri arasında“Vergi partnyorluğu sazişi”nin bağlanması məqsədiləVergi Məcəlləsinə müvafiqmaddələr əlavə edilmiş, Nazirlər Kabinetinin 19.07.2013-cü il tarixli, 190 nömrəli Qərarı ilə “Vergi partnyorluğu Sazişinin forması” və ”Vergi partnyorluğu

**Sazişinin bağlanması Qaydaları”** təsdiq edilmişdir.

“Vergi partnyorluğu Sazişi”vergi orqanı ilə vergi ödəyicisi arasında etibarlılığa, şəffaflığa və qarşılıqlı anlaşmaya əsaslanmaqla, vergi risklərinin minimallaşdırılması məqsədi ilə könüllü şəkildə bağlanılanniyyət razılaşmasıdır.

**Sazişin məqsədləri aşağıdakılardır:**

** sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla, onun inkişafını stimullaşdırmaq;*

** əməkdaşlığa, qarşılıqlı etibarlılığa və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək;*

**müasir idarəetmə alətləri tətbiq etməklə, biznes subyektlərini vergi orqanlarının fəaliyyətinə cəlb etmək;*

**vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək;*

**ədalətli, çevik, effektiv və səmərəli vergi nəzarəti yaratmaq;*

**vergi risklərini minimallaşdırmaq.*

Sazişin bağlanılması zamanı ilkin olaraqvergi ili ərzində yaranmış vergi öhdəliklərini tam vəvaxtında icra edən, alqı-satqı əməliyyatlarını nağdsız qaydada həyata keçirən vergi ödəyicilərinəüstünlük verilir.

Sazişin bağlanması üçünvergi ödəyicisi tərəfindən könüllülük prinsipi əsasəndaVergilər Nazirliyinin 02.07.2013-cü il tarixli əmri ilə təsdiq edilmiş “Vergi partnyorluğu sazişinin bağlanması üçün Ərizə”forması ilə vergi orqanına müraciət edilir, daxil olmuş müraciətə 15 gün müddətində baxılır və sazişin bağlanması barədə qərar qəbul edilərək vergi ödəyicisinə yazılı məlumat verilir.

Vergi ödəyicisinindövlət büdcəsi qarşısında vergi öhdəlikləri olduqda, vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsi (azaldılması) müəyyən edildikdəvergi orqanı tərəfindən Sazişin bağlanılmasından yazılı məlumat verməklə imtina edilir.

Saziş vergilərin düzgün və tam ödənilməsində dövlət vergi orqanlarının yükünün biznes cəmiyyəti ilə bölüşdürülməsinə və qarşılıqlı əməkdaşlıq və məsuliyyət platformasında münasibətlərin qurulmasına yönəlmişdir.

Sazişin qüvvədə olduğu dövr ərzində vergi orqanı tərəfindən vergi qanunvericiliyi və vergi inzibatçılığında aparılan dəyişikliklər barədə vergi ödəyicisi operativ qaydada məlumatlandıracaq, vergi öhdəliklərinin yerinə yetirilməsində ona lazımi metodiki köməklik göstərəcəkdir.

**Sizi vergi partnyorluğu sazişi bağlamağa dəvət edirik.**

Əlavə məlumat almaq üçün 6 saylı Ərazi Vergilər İdarəsinə və ya Vergilər Nazirliyinin 195 nömrəli Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

**6 saylı Ərazi Vergilər İdarəsi**

# Sülhməramlı Süleyman

Süleyman İsmayıl oğlu Musazadə Azərbaycan Texniki Universitetini uğurla bitirdikdən sonra hərbi xidmətdə olmağı özünə borc bildi. Milli Ordu sıralarında qulluq etdi, sonra sülhməramlı qüvvələr taborunun tərkibində Əfqanıstan İslam Respublikasında xidmətini davam etdirdi. Burada qətiyyətli dəstək əməliyyatlarında Azərbaycan Respublikasının Silahlı Qüvvələrini layiqincə təmsil etmişdir.

İsmayıla verilən xidməti xasiyyətnamədə oxuyuruq: “Qanunları və rəhbər sənədləri yaxşı bilir, onların tələblərini, həmçinin komandirlərin və rəislərin əmr və tapşırıqlarını vaxtında yerinə yetirməyə səy göstərir. Peşəkar bilik səviyyəsinin artırılması üçün öz üzərində çalışır. İşinə tənqidi və yaradıcılıqla yanaşır. Vahid komandanlıq prinsiplərinə əməl etməyi bacarır”.

Bu da onu göstərir ki, İsmayıl Azərbaycan dövlətinə, onun xalqına sadiqdir, Ordumuzun sülhməramlı missiyasına həmişə sadiqdir, ölkəmizin ərazi bütövlüyü uğrunda hər an döyüşə hazırdır.

İsmayılla babası, Prezident təqaüdçüsü Musa Bədəlovun evində



görüşdük. Onunla söhbətdən sonra düşündük ki, əsl əsgər belə olmalıdır.

**Ş.Babək**

# Fövqəladə Hallar Nazirliyinin əhaliyə müraciəti

**Son günlər respublika ərazisində havanın isti və quraq keçməsi nəticəsində biçilmiş taxıl, otlaq, kol-kos sahələrində, habelə, meşə massivlərində müxtəlif miqyaslı yanğınlar baş verir. Lakin aparılan araşdırmalar bu yanğınların baş verməsində insanların ehtiyatsızlığının əsas səbəblərdən biri olduğunu üzə çıxarmışdır.**

Yuxarıda qeyd olunanları, həmçinin, yanğınların milli sərvətimiz olan meşələrimizə, flora və faunaya törətdiyi təhlükəni, dövlət büdcəsinə vurduğu ziyanı, ən əsası isə insan həyatına yaratdığı riski nəzərə alaraq, Fövqəladə Hallar Nazirliyi təbiətdə istirahət edən insanlardan odla ehtiyatlı davranmağı, tam söndürülməmiş kibrit dənəsini, siqaret kötüyünü, benzin və başqa yanar mayelərin hopduğu parça və digər materialları ətrafa atmamağı, nəzərdə tutulmamış ərazidə və lazımi təhlükəsizlik tədbirləri görülmədən ocaq qalamamağı, uşaqları nəzarətsiz qoymamağı, kənd təsərrüfatı texnikası ilə işləyən vətəndaşlardan isə yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməyi xahiş edir.

Yanğın baş verdikdə və ya hər hansı yanğın təhlükəsi hiss etdikdə nazirliyin “112” qaynar xəttinə zəng vurmağınız xahiş olunur.

**FHN-nin Cənub Regional
Mərkəzi İctimaiyyətlə əlaqə və
təbliğat sektoru**



**Sərəstan Əliyev**

# Lerik kimi gözəl diyar

Yolun düşsə Lənkərandan,
Meşəsindən, sıx ormandan,
Zənn et çıxdın sən arandan.
Dostu mehman qarşılayar,
Lerik kimi gözəl diyar.

Yamacları əlvan meşə,
Kol dibindən tər bənövşə.
Əyib boynun hər görüşə
Yayda quzey saxlayar qar,
Lerik kimi gözəl diyar.

Möcüzədir təbiəti,
Tanrı yurda bu qisməti
Bəxş eyləyib saf neməti.
Başı ərşə çatan dağlar,
Lerik kimi gözəl diyar.

Meşələri tamaşadır,
Uca dağlar baş-başadır,
İnsanları çox yaşadır.
Təmiz iqlim, saf etibar,
Lerik kimi gözəl diyar.

Bir yanı dağ, biri aran,
Burda insan zaman-zaman
Ömür edib, sürüö dövran.
Ruha qida, iqlimi var,
Lerik kimi gözəl diyar.

Dağ döşündə Cəngəmiran,
Adamları şən, firavan,
Ömür sürür, çox mehriban.
Keçmişidir bir iftixar,
Lerik kimi gözəl diyar.

Yolun düşsə Bilabanda,
Dosta sən mehman olanda
Möcüzə gör o məkanda,
Arxasında uca dağlar,
Lerik kimi gözəl diyar.

Gör uzaqdan Mondiganı,
Hər guşəni, hər döngəni,
Qonşusuna son tikəni
Pay aparar, bağışlayar,
Lerik kimi gözəl diyar.

Uca dağlar qapısından,
Sakit aşıb, keçsən əgər,
Gözəlliyə olub heyran.
Qəlbin çəkməz heç intizar,
Lerik kimi gözəl diyar.

Üzə gülür bağça-bağı,
Əzəmətli uca dağı,
Hoveriyə bu torpağı
Tanrısından müjdə sayar,
Lerik kimi gözəl diyar.

Çox gözəldir ab-havası,
Molla Hüseyn tək mollası,
Müdrik alim Xeyrullası,
Olub yurda bir iftixar,
Lerik kimi gözəl diyar.

Çay içində var Kələxan,
Kəlvəz olub cənnət-məkan.
Göydərəsi dərdə dərman
Bol meyvəsi gətirir bar,
Lerik kimi gözəl diyar.

Bir aləmdir Anburdərə,
Gözəl Qışlaq, Hiledərə.
Qəlb oxşayan bir mənzərə
Qartalı da kəklik qovar,
Lerik kimi gözəl diyar.

Seyrə gəlsən Qosmalyana,
Ruhun, duyğun gələ cana.
Adla ordan Kələxana.
Hər kəhrizdə bulaq qaynar,
Lerik kimi gözəl diyar.

Hiveridən qalx Mistana,
Dərə boyu gülüstana.
Təbiəti bir dastana
Bəzək vurar, qəm dağıdar,
Lerik kimi gözəl diyar.

Pirzorada var ocaq, pir,
İnanc yeri, türbə, qəbir.
Ziyarətə gəlir bir-bir,
Diləyinə nəzir sayar,
Lerik kimi gözəl diyar.

Gözəl yerdə Lələheyran,
Yaşamağa gözəl məkan,
Bağlanıbdır yurda insan,
Həyat sürür çox işgüzar,
Lerik kimi gözəl diyar.

Çökərənin arı balı,
Unutdurur dərd, məlalı,
Cana məlhəm xoş əhvalı.
Gözəl duyğu qəlb oxşayar,
Lerik kimi gözəl diyar.

Dağ başında Pirəsora,
Həyatıdır bir macəra.
Keşməkeşli o dağlara,
Bağlayıb əhd, təmiz ilqar,
Lerik kimi gözəl diyar.

Çeşmələri həyat suyu,
Kəhrizləri dərin quyu,
Kankan açıb ömrü boyu,
Bəxş eyləyib yurda bahar,
Lerik kimi gözəl diyar.

Məlhəm olan dərd-əhvala,
Şəfa suyun Zərinqala,
Şöhrət verdi bu mahala,
Vətənimə bir iftixar,
Lerik kimi gözəl diyar.

**(Davamı var)**

## İşsiz vətəndaşların nəzərinə!

11 sentyabr 2015-ci il tarixdə, saat 10:00-da Lerik şəhər Mədəniyyət evinin foyesində “Əmək yarmarkası” keçiriləcəkdir. Bütün iş axtaran vətəndaşlar özlərinə münasib iş seçməkdən ötrü yarmarkaya dəvət olunurlar.

**Lerik Rayon Məşğulluq Mərkəzi
Əlaqə telefonu: 27-4-49-58, 27-4-60-07.**

# Neftçaladan Lerikə

Ağaş Mirzəyev evin hündür eyvanında oturmuşdu. Çay qabağında, xəyallar onu uzaqlara aparmışdı. Birdən “Ford” markalı ağ maşının həyətə daxil olması onu xəyallardan ayırdı. Etibar Quliyevi görcək bildi ki, Neftçala şəhərindən gəliblər. Maşından on-on beş adam düşdü. Dostları, tanışları ona baş çəkməyə gəlmişdilər. Axı, Ağaş dayı neçə vaxtdır xəstədir, bir yerə çıxa bilmir

Kərbəlayı Hafiz, kərbəlayı Dilavər, kərbəlayı Şirzad, Səfadar Tarverdiyev, Cəbrayıl Rəhimov, Məhəmməd Zeynalov, Lətif Məhəmmədov, kərbəlayı Ədalət, Egün Abdullayev, İsmayıl Abışov, Əsəd Abbasov, Cahangir Ağaverdiyev Ağaş Mirzəyevlə səmimi görüşdükdən sonra söz-sözü çəkdi. Xoş arzular bildirildi və dualar oxundu. Maraqlı görüş bir neçə saat davam etdi. Qonaqlar Babagil ocağını və Ağaş kişinin mərhum övladı Aybənizin məzarını ziyarət etdilər.

Neftçalalı qonaqlar icazə istəyib getmək istədiklərini bildirdilər. Ağaş dayı xatirə şəkili çəkdirməyi xahiş etdi, hamı razılaşdı.

Beləcə, bir görüş də başa çatdı, xatirəyə çevrildi.



**Zəfər Əliyev**



## Allah rəhmət eləsin

Əlizaid Müslümov, Məhəbbət Ağayev, Daşdəmir Kərimov, Ədalət Məmmədov, Sulduz İmaməliyev, dostları
**İltifat Şiriyevin**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Balaşirin Nəsirov, Mübariz Ağayev, İdris Şükürlü, Elman Abbasov, Elxan Əliyev, Daşdəmir Aslanov, Malik Mirzəyev Aqil Sucayevə əzizi
**Cəlalın**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.



Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və “Lerik” qəzetinin redaksiyası
Redaktor: İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küç. - 36,
Tel.: (070) 520-73-91
(0157) 4-54-50

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.
Sifariş: 678 Tiraj: 750

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın “Kapital” bankın Lerik filialındakı hesab nömrəsi: AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935
Qəzet “Mətbuat” firmasının mətbəəsində çap edilmişdir.